# Prezident İlham Əliyevin Ali Avrasiya İqtisadi Şurasının iclasında və MDB Dövlət Başçılarının qeyri-rəsmi Zirvə Görüşündə iştirak etməməsinin səbəbləri açıqlanıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 21-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş Ali Avrasiya İqtisadi Şurasının iclasında və MDB Dövlət Başçılarının dekabrın 22-də keçirilmiş qeyri-rəsmi Zirvə Görüşündə iştirak etməməsinin səbəbləri açıqlanıb.

Prezident Administrasiyasından AZƏRTAC-a bildirilib ki, Azərbaycan Avrasiya İqtisadi İttifaqına üzv olmadığına görə Prezident İlham Əliyev Ali Avrasiya İqtisadi Şurasının dekabrın 21-də keçirilmiş iclasında iştirak etməyib.

Dövlətimizin başçısı dekabrın 22-də MDB Dövlət Başçılarının Sankt-Peterburq şəhərində keçirilmiş qeyri-rəsmi Zirvə Görüşündə isə iş qrafikinin sıxlığına görə iştirak edə bilməyib.

Xatırladaq ki, Azərbaycan Respublikası üzv dövlət kimi MDB-nin rəsmi Zirvə görüşlərində mütəmadi olaraq iştirak edir və MDB çərçivəsində əməkdaşlığa, o cümlədən üzv



dövlətlərlə ikitərəfli əlaqələrin inkişafına mühüm əhəmiyyət verir.

Prezident İlham Əliyev bu il oktyabrın 9-10-da Tacikistanın Düşənbə şəhərində keçirilmiş MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib. İclas çərçivəsində istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə keçirilmiş görüşlər səmərəli olub.

Azərbaycan. - 2025.- 23 dekabr (№ 269).- S.1.